# mr.CottoDerz®




## Təbii daşlar, kərpiclər üçün sement əsaslı dərz dolğu materialı

Məhsul kodu: Rəng kartelasına baxın

### Məhsul haqqında

**mr.Cottodərz®** maksimum 20 mm derz aralığına qədər tətbiq edilə bilən təbii daş, kotto, çay daşları (yassı daş), şüşə kərpic üçün su keçirməyən dərz dolğu materialıdır.
**TS EN 13888 - ÇD1** sinfinə uyğundur.
ÇD = Sement əsaslı dərz dolğusu,
1 = Normal dərz dolğu materialları

### İstifadə sahələri

- Daxili və xarici məkanlarda, şaquli və üfiqi səthlərdə
- Mövcud olan səthlərə yapışdırılmış, keramika, təbii daş, çay daşı (yassı daş), kotto, kərpic, şüşə kərpic dərzlərinin doldurulmasında
- Dekorativ daş örtük işlərində
- Villa, mehmanxana, ticarət mərkəzlərində istifadə edilir

### Üstünlükləri

- Asan hazırlanır və tətbiq edilir
- 5-20 mm dərz genişliyində mükəmməl performans göstərir
- Dərz edilən materialın kənarlarına mükəmməl yapışır
- Sudan təsirlənməyən, xarici tətbiqə davamlıdır

### Texniki göstəriciləri

| Materialın tərkibi | Xüsusi sement, mineral dolğular, polimer |
|---|---|
| Təzyiqə müqaviməti | 17 N/mm$^2$ |
| Əyilməyə müqaviməti | 4 N/mm$^2$ |
| Tətbiq ediləcək səthin istiliyi | +5$^0$C +25$^0$C |
| İstiliyə davamlılığı | -20$^0$C + 80$^0$C |
| Məhlulun istifadə müddəti | 1 saat |
| Üzərində yeriyə bilmə | 12 saat |
| Qarışığın sıxlığı | 1,98 kq/lt |

Yuxarıdakı qiymətlər +23$^0$C və 50% nəmlik üçün verilmişdir. Yüksək temperatur müddəti qısaldır, aşağı temperatur müddəti uzadır.

### İstifadə təlimatı

Səth hazırlığı
Dərzlə doldurulacaq material, maksimum 20 mm dərz aralığı buraxılaraq istənilən səthə uyğun şəkildə döşənməlidir. Dərzlər döşəmə qalınlıqları ilə bərabər olacaq dərinlikdə təmizlənməli; tətbiq edilmədən əvvəl istifadə edilən yapışdırıcının istənilən müqavimətə gəlməsi gözlənilməlidir. Əmiciliyi yüksək olan materialların dərz boşluqları dərz tətbiqindən əvvəl süngər ilə nəmləndirilməlidir.

### Hazırlanması

İstifadə olunacaq su təmiz bir qaba doldurulur və həmin qaba mr Cottoderz® yavaş-yavaş əlavə edilərək 400-600 dövr/dəq-lik bir mikserlə 3-5 dəqiqə, düyünlər həll olunana qədər qarışdırılır. Təxminən 3-5 dəqiqə dincəlməyə qoyulduqdan sonra təkrar 30 saniyə qarışdırılaraq məhsul istifadəyə hazır hala gətirilir.

### İstifadə

mr.Cottoderz® dərz tapancasına çəkilərək dərzlərə doldurulur. Dərin dərzlərdə ilk tətbiq edilmədən qısa müddət sonra dərzdə çökmə meydana gəlir. Bu vəziyyətdə əməliyyat təkrar edilməlidir. Material barmaq təzyiqinə tab gətirənə qədər gözlənilir və daşan çoxluq hissiləri şpaker ilə təmizlənir. Dərz səthləri nəmli bir süngər ilə düzəldilib təmizlənərək son hala gətirilir.

### Toz və su nisbətləri

1 kq toz üçün ~0,24 l su
20 kq toz üçün ~4,80 l su

## Alətlərin təmizlənməsi

Tətbiqdən sonra istifadə edilən alət və ləvazimatlar su ilə təmizlənməlidir. mr.Cottoderz® bərkidikdən sonra ancaq mexaniki şəkildə səthdən təmizlənə bilər.

## Sərfiyyat

Sərfiyyat dərz genişliyinə görə dəyişməkdədir.

| Dekorativ Kərpiç Ölçüləri | mr.Cottoderz® üçün Sərfiyyat cədvəli 5-20 mm |
|---|---|
| | Dərz genişliyi |
| | 10 mm (kq/m²) |
| 6.5x21 | 3 kq |

Sərfiyyat miqdarları nisbidir. Toz məhsul sərfiyyatlarını göstərir.

## Saxlama şərtləri

Açılmamış orijinal bağlamada (qablaşdırmada), sərin və quru şəraitdə saxlanmalıdır.

## Saxlama müddəti

Düzgün saxlanma şəraitində, istehsal tarixindən etibarən 1 il müddətində istifadəyə yararlıdır.

## Təhlükəsizlik tədbirləri



Tətbiq əsnasında, təhlükəsizlik qaydalarına uyğun olaraq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edilməlidir. Məhlul dəriyə və gözə təmas etdirilməməli, təmas etdikdə isə dərhal bol su və sabunla yuyulmalı, udulması halında təcili olaraq həkimə müraciət olunmalıdır. Material tətbiq olunan sahələrə qida məhsulları qoymaq olmaz. Uşaqların əllərinin çatmayacağı yerlərdə saxlanmalıdır. Daha geniş məlumat üçün Təhlükəsizlik Məlumat Formasına baxılmalıdır.

## Cavabdehlik

Mr.Fix sadəcə məhsulun keyfiyyətinə cavabdehdir, məhsulun harada və necə istifadə ediləcəyi ilə əlaqəli yazılı təkliflərdən kənarçıxmalar və/və ya xətalı istifadələrə görə şirkətimiz məsuliyyət daşımır. Xahiş olunur malı alarkən məhsul kitabcası tələb edin və lazımi dəstək üçün şirkətimizin məsul şəxsləri ilə əlaqə saxlayın.

**Net: 20 kq ±2%**

K-Q TSE-ISO-EN 9000

AZS